# Auditor xidmətinin keyfiyyətinə nəzarətin aparılması və onun nəticələrinə dair

# İcmal

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2018-ci il 27 dekabr tarixli 307/6 saylı "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2019-cu il üçün Plan-Qrafik"ə əsasən 2019-cu ilin 9 ayı ərzində 14 auditor təşkilatının və 7 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğu yoxlanılmışdır.

Aparılmış yoxlamalar nəticəsində aşağıda qeyd edilən nöqsan və çatışmazlıqlar aşkar edilmişdir:

## "Audit-Servis" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 4 audit işi ("SANTEXDETAL LTD" MMC, **"**AST TURİZM" MMC", "VİCDAN-1" MMC və "SUMQAYIT TİCARƏT MƏRKƏZİ" ASC) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlə**r** aşağıdakı kimi qiymətləndirilmişdir:

**-"SANTEXDETAL LTD" MMC-nin auditi üzrə:**

1-ci səhv: Auditor Təşkilatı tərəfindən 14.09.2018-ci il tarixində verilmiş rəydə maliyyə hesabatı çərçivəsi düzgün əks etdirilməmişdir. Belə ki, həmin rəydə auditi aparılan müəssisənin maliyyə hesabatlarının hansı standartlara uyğun hazırlanması göstərilməmişdir. Auditor rəyi köhnə formada tərtib edilmişdir.

2-ci səhv: Cəmiyyət tərəfindən 580 saylı "Yazılı təqdimatlar" BAS-in tələblərinə əməl edilməmişdir, Rəhbərliyin məsuliyyəti haqqında yazılı məlumatlar alınmamışdır.

3-cü səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

4-cü səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

**-"AST TURİZM" MMC-nin auditi üzrə:**

1-ci səhv: Auditor Təşkilatı tərəfindən 31.10.2017-ci il tarixində verilmiş rəydə maliyyə hesabatı çərçivəsi düzgün əks etdirilməmişdir. Belə ki, həmin rəydə auditi aparılan müəssisənin maliyyə hesabatlarının hansı standartlara uyğun hazırlanması göstərilməmişdir. Auditor rəyi köhnə formada tərtib edilmişdir. Auditor Təşkilatı tərəfindən 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" və 250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" standartlarının tələbləri pozulmuşdur.

2-ci səhv: Cəmiyyət tərəfindən 580 saylı "Yazılı təqdimatlar" BAS-in tələblərinə əməl edilməmişdir, Rəhbərliyin məsuliyyəti haqqında yazılı məlumatlar alınmamışdır.

3-cü səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

4-cü səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

**-"VİCDAN-1" MMC-nin auditi üzrə:**

1-ci səhv: Auditor Təşkilatı tərəfindən 30.03.2018-ci il tarixində verilmiş rəydə maliyyə hesabatı çərçivəsi düzgün əks etdirilməmişdir. Belə ki, həmin rəydə auditi aparılan müəssisənin maliyyə hesabatlarının hansı standartlara uyğun hazırlanması göstərilməmişdir. 2-ci səhv: Cəmiyyət tərəfindən 580 saylı "Yazılı təqdimatlar" BAS-in tələblərinə əməl edilməmişdir, Rəhbərliyin məsuliyyəti haqqında yazılı məlumatlar alınmamışdır.

3-cü səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

4-cü səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

**-"SUMQAYİT TİCARƏT MƏRKƏZİ"ASC-nin auditi üzrə:**

1-ci səhv: Auditor Təşkilatı tərəfindən 05.02.2018-ci il tarixli verilmiş rəydə maliyyə hesabatı çərçivəsi düzgün əks etdirilməmişdir. Belə ki, həmin rəydə auditi aparılan müəssisənin maliyyə hesabatlarının hansı standartlara uyğun hazırlanması göstərilməmişdir. Auditor rəyi köhnə formada tərtib edilmişdir.

2-ci səhv: Cəmiyyət tərəfindən 580 saylı "Yazılı təqdimatlar" BAS-in tələblərinə əməl edilməmişdir, Rəhbərliyin məsuliyyəti haqqında yazılı məlumatlar alınmamışdır.

3-cü səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

4-cü səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, belə ki, 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilməmiş, 8480,00 manat borc qalmışdır, 2019-cu il üçün üzvlük haqqına görə ödəniş olmamışdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini sığortalamamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət yoxlanılan dövr ərzində auditor yoxlamasını keçirməmişdir.

Cəmiyyət tərəfindən Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilməmişdir Belə ki, bağlanmış müqavilələrin əksəriyyətin dəyəri 200,00 - 500,00 manat olmuşdur.

Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydaların uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. BAS-nın "Keyfiyyətə daxili nəzarət" adlı 1 saylı standartına riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə “C” aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması", 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" və 580 saylı “Yazılı təqdimatlar” BAS-ın tələblərinə diqqət artırılsın.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Cəmiyyət hər il öz fəaliyyətini sığortalatdırsın və Şəhadətnamənin surətini Palataya təqdim etsin.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə və Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarına əsasən hər ilin fəaliyyətinin audit yoxlanılması həyata keçirilsin və Auditor rəyinin surəti Palataya təqdim edilsin.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə” qərarına tam əməl edilsin.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

Auditorlar Palatasına üzvlük haqqı üzrə borcun təcili olaraq ödənilməsi təmin edilsin.

Bir qayda olaraq yoxlama vaxtı lazım olan sənədlərin vaxtında Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə тəzarət üzrə komitənin müfəttişlərinə təqdim edilməsi təmin olunsun.

## “RM Audit” MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 4 audit işi (("Cəlilabd Broyler” ASC, “1 Saylı Bakı Dəmir Yol Poliklinikası” MMC, “Cəlilabad Şərab 2” ASC və “Azərbaycan Dəmir Yolları” QSC Həkim Sanitar Xidməti) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

“Cəlilabd Broyler” ASC-yə 2017- ci iln MHA-nə dair 11 iyun 2018-ci il tarxində Cəmiyyət tərəfindən rəy verilmişdir.

-Maliyyə Hesabatının tərkib hissəsi olan Pul vəsaitlərinin hərəkəti haqqında hesabat tam olaraq doldurulmamışdır.

“1 Saylı Bakı Dəmir Yol Poliklinikası” MMC-yə 2017-ci iln MHA dair 14 fevral 2018-ci il tarixində Cəmiyyət tərəfindən rəy verilmişdir.

Nöqsan aşkarlanmamışdır.

**“Cəlilabad Şərab 2” ASC üzrə:**

1-ci səhv: Auditi aparılan müəssisə tərəfindən Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan “Mühasibat balansı” ilə “Kapitalda dəyişikliklər haqqında hesabat” arasında 9989,00 (doqquz min doqquz yüz səksən doqquz) manat fərq aşkarlanmışdı. Auditor müstəqil auditorun hesabatında həmin fərq barəsində münasibət bildirməmişdir.

Eyni zamanda Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat” tamamilə səhv hazırlanıb və həmin hesabatdakı rəqəmlər bir-birini tamamlamır. “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat”ın doldurulması qaydalarına və prinsiplərinə əməl edilməmişdir.

Bunlara baxmayaraq auditor tərəfindən həmin müəssisənin maliyyə hesabatları barədə “şərtsiz müsbət rəy” verilmişdir. Yəni 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” standartı tətbiq edilmişdir. Əslində isə, auditor tərəfindən yuxarıda adı çəkilən uyğunsuzluğa görə auditi aparılan müəssisəyə “mənfi rəy” verilməli idi, yəni 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” standartı tətbiq edilməli idi.

2-ci səhv: Auditor tərəfindən verilmiş 13.06.2018-ci il tarixli rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 300 saylı “Maliyyə hesabatlarının auditinin planlaşdırılması” standartının, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” standartının və 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” standartlarının tələblərinə əməl edilməmşdir.

**“Azərbaycan Dəmir Yolları” QSC Həkim Sanitar Xidməti üzrə:**

Cəmiyyət tərəfindən 31 dekabr 2017-ci ilin maliyyə hesabatlarına 21.02.2018-ci il tarixində müsbət rəy verilmişdir. Aparılan audit BAS-ın tələblərinə uyğun olmuşdur.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, belə ki, 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilmiş, 2019-cu il üçün üzvlük haqqına görə ödəniş olmamışdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini Sıgorta Şirkətində sıgortalamamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət yoxlanılan dövr ərzində auditor yoxlamasını keçirməmişdir.

2018-ci il 27 fevral tarixində Auditorlar Palatasının üzvlərinə məktub göndərilmiş və tələb olunmuşdur ki, 2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair tərəfinizdən hazırlanmış auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin. Lakin Cəmiyyət tərəfindən bu tələb yerinə yetirilməmişdir.

Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydaların uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. BAS-nın “Keyfiyyətə daxili nəzarət” adlı 1 saylı standartına riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartının və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı lazım gəldikdə tətbiq edilsin.

Maliyyə hesabatlarının tərkib hissəsi olan Maliyyə vəziyyəti haqqında hesabat, Mənfəət və zərər haqqınga hesabat, Kapitalda dəyişiklik haqqında hesabat, Pul vəsaitlərinin hərəkəti haqqında hesabat, Şərhlər və Qeyidlər BAS-lara uy]un olaraq tərtib edilsin.

"Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq auditor fəaliyyətinin sonrakı dövr üçün sığortalanması təmin edilsin.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə və Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarına əsasən hər ilin fəaliyyətinin audit yoxlanılması həyata keçirilsin və Auditor rəyinin surəti Palataya təqdim edilsin.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair təqdim edilmiş auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin.

Bir qayda olaraq yoxlama vaxtı lazım olan sənədlərin vaxtında Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə тəzarət üzrə komitənin müfəttişlərinə təqdim edilməsi təmin olunsun.

## "Çinar Audit Konsaltinq" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 5 audit işi (Beyləqan Şəhər Bələdiyəsi, Xəzər Rayonu Şüvalan Bələdiyəsi," Xəzər Rayonu Mərdəkan Bələdiyəsi, Abşeron Rayonu Xırdalan Bələdiyyəsi, Qax Rayonu Qax Bələdiyyəsi) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlə**r** aşağıdakı kimi qiymətləndirilmişdir:

-**Xəzər Rayonu Şüvalan Bələdiyəsinin auditi üzrə** (auditor İlham Hacıəzizov), Cəmiyyət tərəfindən 02.05.2017-ci il tarixdə rəy verilmişdir .

**-Qax Rayonu Qax Bələdiyyəsinin auditi üzrə** (auditor Vəli Rəhimov), Cəmiyyət tərəfindən 05.02.2018-ci il tarixdə rəy verilmişdir.

Hər iki bələdiyyələr üzrə maliyyə hesabatları Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş və audit Beynəlxalq Audit Standartlarına əsasən aparılmışdır.

**- Beyləqan Şəhər Bələdiyəsinin auditi üzrə** (auditor Şəmşinur Hüseynov)

Cəmiyyət tərəfindən 19.01.2017-ci il tarixldə rəy verilmişdir.

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

**-Abşeron Rayonu Xırdalan Bələdiyəsinin auditi üzrə** (auditor Yasin Şirinov)

Cəmiyyət tərəfindən 20.04.2017-ci il tarixdə rəy verilmişdir

1-ci səhv Maliyyə Hesabatının tərkib hissəsi olan dörd forma: Bələdiyənin maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, Kapitalda dəyişiklər haqqıda hesabat və Pul vəsaitlərinin hərəkəti haqqında hesabat yoxdur. Bunlara baxmayaraq Auditor tərəfindən həmin Bələdiyənin Maliyyə Hesabatları barədə “şərtsiz müsbət rəy” verilmişdir. Bununla da 700 saylı “Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı” standartı tətbiq edilmişdir. Halbuki 700 saylı “Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı” və 250 saylı “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” standartlarının tələbləri pozulmuşdur.

2-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

3-cü səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

**-Xəzər Rayonu Mərdəkan Bələdiyəsinin auditi üzrə** (auditor Qulu Soltanov)

Cəmiyyət tərəfindən 18.02.2017-ci il tarixdə rəy verilmişdir.

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS-ın Audit planı bölməsində Audit riskini mümkün qədər aşağı səviyyəyədək azaltmaq üçün auditor audit planını hazırlamalıdır. Lakin buna əməl edilməmişdir.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, belə ki, 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilmiş, 2019-cu il üçün üzvlük haqqına görə ödəniş olmamışdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini "Atəşgah" Sıgorta Şirkətində 07 fevral 2019-cu il tarixdən 06 fevral 2020-ci il tarixədək sıgortalamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət yoxlanılan dövr ərzində auditor yoxlamasını keçirməmişdir.

2018-ci il 27 fevral tarixində Auditorlar Palatasının üzvlərinə məktub göndərilmiş və tələb olunmuşdur ki, 2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair tərəfinizdən hazırlanmış auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma,

hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin. Lakin Cəmiyyət tərəfindən bu tələb yerinə yetirilməmişdir.

Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydaların uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilmiş və BAS-nın keyfiyyətə daxili nəzarət əmrlə auditor Vəli Rəhimova həvalə edilmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin.

Maliyyə hesabatlarının tərkib hissəsi olan Maliyyə vəziyyəti haqqında hesabat, Mənfəət və zərər haqqınga hesabat, Kapitalda dəyişiklik haqqında hesabat, Pul vəsaitlərinin hərəkəti haqqında hesabat, Şərhlər və Qeyidlər, eləcə də rəy Müstəqil Auditorun Hesabatının tərkib hissəsi olaraq audit dosyesi kimi komplekt şəkildə təqdim edilsin.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə və Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarına əsasən hər ilin fəaliyyətinin audit yoxlanılması həyata keçirilsin və Auditor rəyinin surəti Palataya təqdim edilsin.

2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair təqdim edilmiş auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin.

Bir qayda olaraq yoxlama vaxtı lazım olan sənədlərin vaxtında Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə тəzarət üzrə komitənin müfəttişlərinə təqdim edilməsi təmin olunsun.

## "İntex Audit" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 audit işi ( "Al-Trans" MMC, **"**GURU" MMC və "GRANT Thornton LLC"- in the Republic of Azerbaijan) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlə**r** aşağıdakı kimi qiymətləndirilmişdir:

**"Al-Trans" MMC-nin və "GURU" MMC–nin auditləri üzrə:**

Cəmiyyət tərəfindən Auditor Rəyləri köhnə formatda təqdim edilmişdilər.

210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmiş, Məktub-öhdəlik tərtib edilməmişdir.

300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmiş, Audit plan-proqramı tərtib edilməmişdir.

**GRANT Thornton LLC in THE Republic of Azerbaijan auditi üzrə** sənədləşdirmələr ingilis dilində tərtib edilmişdir.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilmiş, 2019-cu il üçün üzvlük haqqına görə ödəniş olmamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyətin 2017-ci ilin auditor yoxlamasını sərbəst auditor Elnur İbrahimov tərəfindən aparılmışdır. 2018-ci ilin nəticəsinə görə auditor yoxlaması keçirilməmişdir.

Cəmiyyət tərəfindən Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilməmişdir Belə ki, bağlanmış müqavilələrin bir qisminin dəyəri 200,00 - 500,00 manat olmuşdur.

Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydalara uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. BAS-nın "Keyfiyyətə daxili nəzarət" adlı 1 saylı standartına riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə "B" Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması", 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartlarının tələblərinə əməl edilsin.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilsin.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

Auditorun iş sənədlərinin azərbaycan dilində tərtib edilməsi həyata keçirilsin.

## "Caspian Consulting and Partners" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 4 audit işi (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik, "Azeri Star" MMC, və "Neftçi Peşakar Futbol klubu" MMC)

qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**- Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik layihənin auditi üzrə**:

Cəmiyyət tərəfindən 29 mart 2019-cu il tarixdə rəy verilmiş, BAS-ın tələblərinə əməl edilmişdir.

**- “Neftçi Peşakar Futbol Klubu” MMC–nin auditi üzrə:**

Cəmiyyət tərəfindən 31 dekabr 2017-ci il və 31 dekabr 2018-ci ilin yekunlarına görə MHA–ni aparılmış və 31 mart 2018-ci il və 28 mart 2019-cu il tarixlərində rəy verilmiş, BAS-ın tələblərinə əməl edilmişdir.

**- ”Azeri Star”MMC-nin auditi üzrə:**

Cəmiyyət tərəfindən 14 iyun 2019-cu il tarixdə rəy verilmişdir. Uçot Siyasəti Şərhlər və Qeydlərdə hesabat dövründən sonra baş vermiş hadisələr qeyd edilməmişdir.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilmış, 2019-cu il üçün nəzərdə tutulan üzvlük haqqından 2293,00 ödənilmişdır.

Cəmiyyət tərəfindən Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə” qərarına tam əməl edilməmişdir Belə ki, bəzi hallarda təsərrufat subyektlərinin illik dövriyyələri 1000,00 manat və daha cox olmasına baxmayaraq bağlanmış müqavilələrin minimum həddi 10000,00 manat tövsiyə olunmasına baxmayaraq "BLUE WATER SHIPPING CASPIAN LTD" ilə 2360,00 manata, "TRANSBOKER" MMC və "Azərbaycan Technologies firması" ilə 1770,00 manata, "Santral Elektrik LTD" MMC və "Atenau" MMM ilə 2950,00 manata, "Mini" MMC, "Mini Services" MMC və "Groupone" MMC hər biri ilə 1000,00 manata bağlanmışdır.

“Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə nə dərəcədə riayət edilib-edilməməsi araşdırılarkən məlum olmuşdur ki, yoxlamanın əhatə etdiyi dövrdə Cəmiyyətin hesabına daxil olan vəsaitlər tam olaraq bankda olan hesablaşma hesabına mədaxil edilmişdir.

2018-ci il 27 fevral tarixində Auditorlar Palatasının üzvlərinə məktub göndərilmiş və tələb olunmuşdur ki, 2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair tərəfinizdən hazırlanmış auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin. Lakin Cəmiyyət tərəfindən bu tələb yerinə yetirilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə “B” Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilsin.

2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair təqdim edilmiş auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin.

Bir qayda olaraq yoxlama vaxtı lazım olan sənədlərin vaxtında Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə тəzarət üzrə komitənin müfəttişlərinə təqdim edilməsi təmin olunsun.

## "Victoryways Audit Consulting" MMC

Müqavilə öhdəliyi üzrə auditor təşkilatı tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 5 audit işi ("Sinerji Proje Yönetimi Elektrik Elektronik VE Sajlin Texnolojiləri Diş Ticaret Limited" Şirkətinin Azərbaycan Respublikasında Filialı, Zülfüqarov Ramin Zülfüqar oğlu (xüsusi notarius ASAN-5), "Lal Bahçeleri Mimarlıq Peyzaj Tasarım Hizmetleri Sanayi və Ticaret Anonim Şirketinin Azərbaycan Respublikasında Filialı, Həbibbəyli Sidqi Yaqub oğlu Asan-4 xüsusi notarius, İslamov Bahadır Sabir oğlu Abşeron Rayonu 1 saylı notarius kontoru) qiymətəndirmə üçün sekilmişdir. Cəmiyyət tərəfindən göstərilmiş xidmətlər aşağıdakı kimi qiymətləndirilmişdir:

Yuxarıda adları sadalanah təsərrufat subyektlərinə Cəmiyyət tərəfindən müqaviləyə əsasən müvafiq ilin mühasibat, vergi və kadr işlərinin aparılması nəzərdə tutulmuşdur. Lakin ilin yekununda Cəmiyyət tərəfindən görülmüş işlərin, xidmətlərin göstərilməsinə dair hesabat tərtib edilməmişdir, bununla da 402 saylı "Xidmət təşkilatının xidmətindən istifadə edən müəssisələrin auditi üzrə mülahizələr" BAS-ın tələblərinə riayət edilməmişdir.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, belə ki, 2016-2018-ci illərin üzvlük haqqı tam olaraq ödənilmış, 2019-cu il üçün nəzərdə tutulan üzvlük haqqından 1293,00 manat ödənilmişdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini sığortalamamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət yoxlanılan dövr ərzində auditor yoxlamasını keçirməmişdir. 2018-ci ilin audit yoxlamasının keçirilməsi məqsədi ilə "Abacus Audit and Consulting" MMC ilə 01.04.2019-cu il tarixdə müqavilə bağlanmış, lakin Auditor rəyi alınmamışdır.

Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydaların uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. BAS-nın "Keyfiyyətə daxili nəzarət" adlı 1 saylı standartına riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin: 402 saylı "Xidmət təşkilatının xidmətindən istifadə edən müəssisələrin auditi üzrə mülahizələr" BAS-ın tələblərinə riayət edilsin. Bağlanmış müqavilələrə əsasən ilin yekununda görülmüş işlərə və göstərilmiş xidmətlərə dair Hesabat tərtib edilsin.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Cəmiyyət hər il öz fəaliyyətini sığortalatdırsın və Şəhadətnamənin surətini Palataya təqdim etsin.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

## "Nahid Audit" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 4 audit işi ("Tunel-Metro İnşaat " MMC, "Bakı Çinar Soyuducuları " ASC, "Qaz Oil Building" MMC və "Sabunçuavtomatikaquraşdırma" ASC) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**"Tunel-Metro İnşaat " MMC üzrə:**

Auditor təşkilatı tərəfindən verilmiş 22.05.2017-ci il tarixli rəydə "Tunel-Metro İnşaat " MMC -nin 2016-cı il üzrə maliyyə hesabatlarının auditinin aparılması bildirilmiş və maliyyə hesabatlarının "Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına" (KTMMUS) uyğun olaraq hazırlandığı əks etdirilərək həmin müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartı tətbiq edilmişdir.

Təqdim olunmuş sənədlərə əsasən aparılan araşdırma zamanı müəyyən edilmişdir ki, "Tunel-Metro İnşaat" MMC tərəfindən "Maliyyə hesabatlarının təqdimatı üzrə" Kommersiya Təşkilatları üçün 1№ li Milli Mühasibat Uçotu Standartının tələbləri pozularaq maliyyə hesabatlarının tam məcmusu hazırlanmamışdır. Yəni "Mühasibat balansı", "Mənfəət və zərər haqqında hesabat", "Kapitalda dəyişikliklər haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və "Uçot siyasəti və izahlı qeydlər" hazırlanmamışdır. Auditor təşkilatı tərəfindən həmin hesabatların hazırlanmamasına görə auditi aparılan müəssisəyə "mənfi rəy"

verilməli idi, yəni 701 saylı " Müstəqil auditorun hesabatında dəyişikliklər" standartı tətbiq edilməli idi.

Auditor təşkilatı tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsə də, BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı "Audit tapşırığının şərtləri" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-xüsusi maddələr üzrə əlavə mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartının və 701 saylı " Müstəqil auditorun hesabatında dəyişikliklər" standartlarının tələblərinə əməl edilməmşdir.

**"Bakı Çinar Soyuducuları " ASC üzrə:**

Auditor təşkilatı tərəfindən verilmiş 19.04.2018-ci il tarixli rəydə "Bakı Çinar Soyuducuları" ASC-nin 2017-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması bildirilmiş və maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq hazırlandığı əks etdirilərək həmin müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartı tətbiq edilmişdir.

Təqdim olunmuş sənədlərə əsasən aparılan araşdırma zamanı müəyyən edilmişdir ki, "Bakı Çinar Soyuducuları" ASC tərəfindən "Maliyyə hesabatlarının təqdimatı üzrə" Kommersiya Təşkilatları üçün 1№ li Milli Mühasibat Uçotu Standartının tələbləri pozularaq maliyyə hesabatlarının tam məcmusu hazırlanmamışdır. Yəni "Mühasibat balansı", "Mənfəət və zərər haqqında hesabat", "Kapitalda dəyişikliklər haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və "Uçot siyasəti və izahlı qeydlər" hazırlanmamışdır. Auditor təşkilatı tərəfindən həmin hesabatların hazırlanmamasına görə auditi aparılan müəssisəyə "mənfi rəy" verilməli idi, yəni 701 saylı "Müstəqil auditorun hesabatında dəyişikliklər" standartı tətbiq edilməli idi.

Auditor təşkilatı tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsə də, BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı "Audit tapşırığının şərtləri" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-xüsusi maddələr üzrə əlavə mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartının və 701 saylı " Müstəqil auditorun hesabatında dəyişikliklər" standartlarının tələblərinə əməl edilməmşdir.

**"Qaz Oil Building" MMC üzrə:**

Auditor təşkilatı tərəfindən verilmiş 19.03.2018-ci il tarixli rəydə "Qaz Oil Building" MMC-nin 2017-cİ il üzrə maliyyə hesabatlarının auditinin aparılması bildirilmiş və maliyyə hesabatlarının "Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına" (KTMMUS) uyğun olaraq hazırlandığı əks etdirilərək həmin müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartı tətbiq edilmişdir.

Təqdim olunmuş sənədlərə əsasən aparılan araşdırma zamanı müəyyən edilmişdir ki, "Qaz Oil Building" MMC tərəfindən "Maliyyə hesabatlarının təqdimatı üzrə" Kommersiya Təşkilatları üçün 1№ li Milli Mühasibat Uçotu Standartının tələbləri pozularaq maliyyə hesabatlarının tam məcmusu hazırlanmamışdır. Yəni "Mühasibat balansı", "Mənfəət və zərər

haqqında hesabat", "Kapitalda dəyişikliklər haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və "Uçot siyasəti və izahlı qeydlər" hazırlanmamışdır. Auditor təşkilatı tərəfindən həmin hesabatların hazırlanmamasına görə auditi aparılan müəssisəyə "mənfi rəy" verilməli idi, yəni 701 saylı "Müstəqil auditorun hesabatında dəyişikliklər" standartı tətbiq edilməli idi.

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 2 audit işi (“AZ.SAFE” MMC və ”F5” MMC) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

Hər iki auditlər əsasən BAS-na uyğun aparılmış, lakin 500 saylı “Audit sübutu” BAS-ın tələbinə tam riayət edilməmiş, kifayət qədər audit sübutları toplanmamışdır.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilməmişdir, belə ki, 2017-ci ilin üzvlük haqqı tam olaraq ödənilmış, 2018-2019-cu illər üçün üzvlük haqqına görə 10595,0 manat borcu qalmışdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətini sığortalamamışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyətin 2018-ci ilin auditor yoxlaması keçirilməmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a uyğun olaraq Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydalara əsasən keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. Yoxlama gününədək hec bir auditin nəticələri müzakirə edilməmiş və keyfiyyəti qiymətləndirilməmişdir. BAS-nın “Keyfiyyətə daxili nəzarət” adlı 1 saylı standarta riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə “B” Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən: 500 saylı “Audit sübutu” standartının tələblərinə əməl edilsin.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin

keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

Auditorlar Palatasına 2019-cu ilin üzvlük haqqı üzrə borcun təcili olaraq ödənilməsi təmin edilsin.

## Sərbəst auditor Tariyel Aslan oğlu Talıbov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 6 audit işi (Xəzər rayonu "Zirə" Bələdiyyəsi, "GESCO" ASC, "Bakışəhərtikintimexanikləşdirmə", "Faktor Qrup-S" MMC, "Premier Audit və Konsaltinq" MMC və "Nexia EA" MMC) qiymətləndirmə üçün seçilmişdir. Auditor tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**1-ci Xəzər rayonu "Zirə" Bələdiyyəsi 2017-ci ilin auditi (Dövriyyə 58075,54 manat, Müqavilə - 1000,00 manat)**

1-ci səhv: Bildiyimiz kimi Azərbaycan Respublikası Auditorlar Palatasının sədrinin müvafiq qərarına əsasən 01.01.2010-cu il tarixdən etibarən bütün auditor təşkilatları və sərbəst auditorlar öz peşə fəaliyyətlərini (apardıqları auditləri) yerinə yetirərkən Beynəlxalq Audit Standartlarını tətbiq etməlidirlər. Lakin Auditor tərəfindən Xəzər rayonu "Zirə" Bələdiyyəsinin auditinin aparılmasında ümumiyyətlə Beynəlxalq Audit Standartları tətbiq edilməmişdir. Onun tərəfindən qüvvədən düşmüş rəy formatında Xəzər rayonu "Zirə" Bələdiyyəsinə şərtsiz müsbət rəy verilmişdir.

2-ci səhv: Bələdiyyələr maliyyə hesabatlarını, Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunun 13.1 maddəsinə əsasən "Büdcə Təşkilatları üçün Milli Muhasibat Uçotu Standartlarına" uyğun olaraq tərtib etməlidirlər.

1 №li "Maliyyə Hesabatlarının Təqdimatı üzrə Büdcə Təşkilatları üçün Milli Muhasibat Uçotu Standartının 16-cı maddəsinə əsasən, maliyyə hesabatlarının tam toplusu aşağıdakı komponentlərdən ibarətdir:

(a) maliyyə vəziyyəti haqqında hesabat (Əlavə 1);

(b) maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat (Əlavə 2);

(c) xalis aktivlər/kapitalda dəyişikliklər haqqında hesabat (Əlavə 3);

(d) pul vəsaitlərinin hərəkəti haqqında hesabat (Əlavə 4);

(e) əhəmiyyətli ucot siyasətləri və izahlı qeydlər.

Xəzər rayonu "Zirə" Bələdiyyəsi tərəfindən yuxarıda sadalanan maliyyə hesabatlarının tam toplusu hazırlanmamasına baxmayaraq, Auditor tərəfindən hazırlanmış qüvvədən düşmüş rəy formatında Xəzər rayonu "Zirə" Bələdiyyəsinin **maliyyə hesabatlarının** auditi aparıldığını bildirmiş və **olmayan maliyyə hesabatları** barədə "şərtsiz müsbət rəy" verərək auditi təhrif etmişdir.

Bütün bunlara görə Auditor tərəfindən həmin maliyyə hesabatlarının hazırlanmamasına görə Xəzər rayonu "Zirə" Bələdiyyəsinə "rəy verməkdən imtina" etməli idi, yəni 705 saylı " Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı tətbiq edilməli idi. Rəy verməkdən imtina edilməsi auditin əhatə dairəsinin məhdudlaşdırılmasının o dərəcədə əhəmiyyətli və geniş miqyaslı təsiri ilə əlaqədardır ki, bu zaman auditor kifayət qədər auditor sübutları əldə etmək və müvafiq olaraq maliyyə hesabatına dair rəy vermək iqtidarında olmur.

**2-ci müəssisə "GESCO" ASC (Dövriyyə 4976755,00 manat, Müqavilə 1000,00 manat)**

1-ci səhv: Auditor tərəfindən "GESCO" ASC-nin 31 dekabr 2017-ci ilin maliyyə hesabatlarına 08.05.2018-ci il tarixdə verdiyi rəy qüvvədən düşmüş rəy formatında verilmişdir. Belə ki, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında dəyişiklik olduğuna görə 01.01.2017-ci il tarixdən etibarən bütün auditor təşkilatları və sərbəst auditorlar öz peşə fəaliyyətlərini (apardıqları auditləri) yerinə yetirərkən yeni rəy formatını tətbiq etmək tapşırılmışdır. 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında olan dəyişikliklər və yeni rəy formatı auditor təşkilatları və sərbəst auditorların istifadəsinə təqdim olunmuşdur.

2-ci səhv: Auditor tərəfindən "GESCO" ASC-nin 31 dekabr 2017-ci ilin maliyyə hesabatlarına 08.05.2018-ci il tarixdə verdiyi rəydə "Hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır" qeyd etsədə, Auditor həmin maliyyə hesabatlarını Rəhbərliklə yanaşı özüdə imza və möhürü ilə təsdiqləyərək BAS-ın tələblərini kobud şəkildə pozmuşdur.

3-cü səhv: Auditi aparılan müəssisə tərəfindən Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan "Mühasibat balansı" ilə "Kapitalda dəyişikliklər haqqında hesabat" arasında 67705,00 (altmış yeddi min yeddi yüz beş) manat fərq aşkarlanmışdı. Yəni Mühasibat balansının Kapital bölməsində bölüşdürülməmiş mənfəət maddəsində 67705,00 (altmış yeddi min yeddi yüz beş) manat məbləğ əskik əks etdirilmişdir. Bu da öz növbəsində Mühasibat balansının Aktivlər bölməsində hər hansısa bir aktivin Mühasibat balansından yayındırılması qənaətinə gətirib çıxarır.

Eyni zamanda Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" tamamilə səhv hazırlanıb və həmin hesabatdakı rəqəmlər bir-birini tamamlamır.

Bunlara baxmayaraq auditor tərəfindən həmin müəssisənin maliyyə hesabatları barədə "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartı tətbiq edilmişdir. Əslində isə, auditor tərəfindən yuxarıda adı çəkilən uyğunsuzluğa görə auditi aparılan müəssisəyə "mənfi rəy" verilməli idi, yəni 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı tətbiq edilməli idi.

4-cü səhv: Auditor tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartının və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartlarının tələblərinə əməl edilməmşdir.

**3-cü müəssisə "Bakışəhərtikintimexanikləşdirmə" ASC (Dövriyyə 5588,06 manat, Müqavilə 400,00 manat)**

1-ci səhv: Auditor tərəfindən "Bakışəhərtikintimexanikləşdirmə" ASC-nin 31 dekabr 2016-cı ilin maliyyə hesabatlarına 03.05.2017-ci il tarixdə verdiyi rəy qüvvədən düşmüş rəy formatında

verilmişdir. Belə ki, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında dəyişiklik olduğuna görə 01.01.2017-ci il tarixdən etibarən bütün auditor təşkilatları və Auditorlar öz peşə fəaliyyətlərini (apardıqları auditləri) yerinə yetirərkən yeni rəy formatını tətbiq etmək tapşırılmışdır. 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında olan dəyişikliklər və yeni rəy formatı auditor təşkilatları və sərbəst auditorların istifadəsinə təqdim olunmuşdur.

2-ci səhv: Auditi aparılan müəssisə tərəfindən Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" tamamilə səhv hazırlanıb və həmin hesabatdakı rəqəmlər bir-birini tamamlamır. "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"ın doldurulması qaydalarına və prinsiplərinə əməl edilməmişdir.

Bunlara baxmayaraq Auditor tərəfindən BAS-ın tələbləri kobud şəkildə pozularaq verilən rəyin Rəy bölməsində "Mənim fikrimcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir" ifadəsini yazaraq, həmin müəssisənin maliyyə hesabatları barədə "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartı tətbiq edilmişdir. Əslində isə, Auditor tərəfindən yuxarıda adı çəkilən uyğunsuzluğa görə auditi aparılan müəssisəyə "mənfi rəy" verilməli idi, yəni 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı tətbiq edilməli idi.

3-cü səhv: Auditor tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartının və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartlarının tələblərinə əməl edilməmşdir.

**4-cü müəssisə "Faktor Qrup-S" MMC (Dövriyyə 1641120,00 manat, Müqavilə 1000,00 manat)**

1-ci səhv: Auditor tərəfindən "Faktor Qrup-S" MMC-nin 31 dekabr 2017-ci ilin maliyyə hesabatlarına 25.06.2018-ci il tarixdə verdiyi rəy qüvvədən düşmüş rəy formatında verilmişdir. Belə ki, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında dəyişiklik olduğuna görə 01.01.2017-ci il tarixdən etibarən bütün auditor təşkilatları və sərbəst auditorlar öz peşə fəaliyyətlərini (apardıqları auditləri) yerinə yetirərkən yeni rəy formatını tətbiq etmək tapşırılmışdır. 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartında olan dəyişikliklər və yeni rəy formatı auditor təşkilatları və sərbəst auditorların istifadəsinə təqdim olunmuşdur.

2-ci səhv: Auditor tərəfindən "Faktor Qrup-S" MMC-nin 31 dekabr 2017-ci ilin maliyyə hesabatlarına 25.06.2018-ci il tarixdə verdiyi rəydə "Hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır" qeyd etsədə, Auditor həmin maliyyə

hesabatlarını Rəhbərliklə yanaşı özüdə imza və möhürü ilə təsdiqləyərək BAS-ın tələblərini kobud şəkildə pozmuşdur.

3-cü səhv: Auditi aparılan müəssisə tərəfindən Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan "Mühasibat balansı" ilə "Kapitalda dəyişikliklər haqqında hesabat" arasında 5232447,00 (beş milyon iki yüz otuz iki min dörd yüz qırx yeddi) manat fərq aşkarlanmışdı. Yəni "Kapitalda dəyişikliklər haqqında hesabat"da 5232447,00 (beş milyon iki yüz otuz iki min dörd yüz qırx yeddi) manat məbləğ əskik əks etdirilmişdir.

Eyni zamanda Maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" ümumiyyətlə hazırlanmamışdır.

Bunlara baxmayaraq Auditor tərəfindən BAS-ın tələbləri kobud şəkildə pozularaq verilən rəyin Rəy bölməsində "Mənim fikrimcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir" ifadəsini yazaraq, həmin müəssisənin maliyyə hesabatları barədə "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartı tətbiq edilmişdir. Əslində isə, auditor tərəfindən yuxarıda adı çəkilən uyğunsuzluğa görə auditi aparılan müəssisəyə "mənfi rəy" verilməli idi, yəni 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı tətbiq edilməli idi.

4-cü səhv: Auditor tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartının və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartlarının tələblərinə əməl edilməmşdir.

**5-ci müəssisə "Premier Audit və Konsaltinq" MMC (Dövriyyə 71604,23 manat, Müqavilə 600,00 manat)**

1-ci səhv: Auditor tərəfindən verilmiş 24.02.2018-ci il tarixli rəydə "Premier Audit və Konsaltinq" MMC-nin maliyyə hesabatlarının auditinin aparılması bildirilmiş və maliyyə hesabatları "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına" uyğun olaraq hazırlandığı əks etdirilərək həmin müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Yəni 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməs" standartı tətbiq edilmişdir. Lakin tərəfimizdən aparılan araşdırma zamanı müəyyən edildi ki, "Premier Audit və Konsaltinq" MMC tərəfindən "Maliyyə hesabatlarının təqdim edilməsi" üzrə 1№li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının 8-ci maddəsinin tələbləri pozularaq maliyyə hesabatlarının tam toplusu hazırlanmamışdır. Yəni "Balans hesabatı" və "Maliyyə nəticələri haqqında hesabat" birtərəfli qaydada qismən hazırlansada, "Kapitalda dəyişikliklər haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və "Uçot siyasəti və izahlı qeydlər" ümumiyyətlə hazırlanmamışdır. Bütün bunlara görə Auditor tərəfindən həmin hesabatların hazırlanmamasına görə auditi aparılan cəmiyyətə "rəy verməkdən imtina" etməli idi, yəni 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartı tətbiq edilməli idi. Rəy verməkdən imtina edilməsi auditin əhatə dairəsinin məhdudlaşdırılmasının o dərəcədə

əhəmiyyətli və geniş miqyaslı təsiri ilə əlaqədardır ki, bu zaman auditor kifayət qədər auditor sübutları əldə etmək və müvafiq olaraq maliyyə hesabatına dair rəy vermək iqtidarında olmur.

2-ci səhv: Auditor tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 210 saylı “Audit tapşırığı şərtlərinin razılaşdırılması” standartının, 300 saylı “Maliyyə hesabatlarının auditinin planlaşdırılması” standartının, 501 saylı “Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr” standartının, 505 saylı “Kənar mənbədən təsdiqləmələr” standartının, 580 saylı “Rəhbərliyin məlumatları” standartının, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” standartının və 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” standartlarının tələblərinə əməl edilməmşdir.

**6-cı müəssisə “Nexia EA” MMC (Dövriyyə 117960,00 manat, Müqavilə 1500,00 manat)**

1-ci səhv: Auditor tərəfindən verilmiş 21.05.2018-ci il tarixli rəydə “Nexia EA” MMC-nin maliyyə hesabatlarının auditinin aparılması bildirilmiş və maliyyə hesabatları “Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına” uyğun olaraq hazırlandığı əks etdirilərək həmin müəssisənin maliyyə hesabatlarına “şərtsiz müsbət rəy” verilmişdir. Yəni 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməs” standartı tətbiq edilmişdir. Lakin tərəfimizdən aparılan araşdırma zamanı müəyyən edildi ki, “Nexia EA” MMC tərəfindən “Maliyyə hesabatlarının təqdim edilməsi” üzrə 1№li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının 8-ci maddəsinin tələbləri pozularaq maliyyə hesabatlarının tam toplusu hazırlanmamışdır. Yəni “Balans hesabatı”, “Maliyyə nəticələri haqqında hesabat”, “Kapitalda dəyişikliklər haqqında hesabat”, “Pul vəsaitlərinin hərəkəti haqqında hesabat” hazırlansada maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan “Uçot siyasəti və izahlı qeydlər” ümumiyyətlə hazırlanmamışdır. Buna görə də Auditor tərəfindən maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsi olan “Uçot siyasəti və izahlı qeydlər”in hazırlanmamasına görə auditi aparılan cəmiyyətə “mənfi rəy” verməli idi, yəni 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” standartı tətbiq edilməli idi.

2-ci səhv: Auditor tərəfindən verilmiş rəydə auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı qeyd edilsədə, lakin BAS-ın tələblərinə əməl edilməmişdir. O cümlədən, 300 saylı “Maliyyə hesabatlarının auditinin planlaşdırılması” standartının, 501 saylı “Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr” standartının, 505 saylı “Kənar mənbədən təsdiqləmələr” standartının, 580 saylı “Rəhbərliyin məlumatları” standartının, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” standartının və 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” standartlarının tələblərinə əməl edilməmşdir.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilməmişdir. Belə ki, 01.01.2018-cfi iltarixə üzvlük haqqı üzrə 7673,00 manat borc qalmışdır. 2019-cu il üçün ödəniş olmamışdır.

Auditorlar Palatası Şurasının 2009-cu il 26 yanvar tarixli 197/6 saylı “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə” Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı qərarına əlavə və dəyişikliklər edilməsi haqqında”, eləcə də eyni adlı Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli qərarına tam əməl edilməmişdir. Belə ki, “Gesko” ASC-

nin illik dövriyyəsi 4976755,00 manat olmasına baxmayaraq minimum 10000,00 manat əvəzinə cəmi1000,00 manata müqavilə bağlanmışdır, "Sabina P&C" MMC-nin dövriyyəsi 7165395,00 manat olduğu halda müqavilənin dəyəri 1600,00 manat olmuşdur, "Azərbaycan İnsrance Broking" MMC-nin dövriyyəsi 258560,00 manat olduğu halda müqavilənin dəyəri cəmi 500,00 manat olmuşdur, "Azmetko" ASC-nin dövriyyəsi 1520168,39 manat olduğu halda müqavilənin dəyəri cəmi 700,00 manat olmuşdur. Bundan başqa bir çox bələdiyyələrlə bağlanmış müqavilənin məbləği 100,00 – 200,00 manat olmuşdur.

2018-ci il 27 fevral tarixində Auditorlar Palatasının üzvlərinə məktub göndərilmiş və tələb olunmuşdur ki, 2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair tərəfinizdən hazırlanmış auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin. Lakin Auditor tərəfindən bu tələb yerinə yetirilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qeyri-Qənaətbəxş (2)** – qiymətləndirmə "D" (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əhəmiyyətli hesab edilir və auditor hesabatının keyfiyyətinə əhəmiyyətli təsir edir). Keyfiyyətə nəzarətə dair hesabata yoxlama zamanı aşkar edilmiş əhəmiyyətli çatışmazlıqların Azərbaycan Respublikasının qanunvericiliyinə, peşə standartlarının tələblərinə və müvafiq etik normalara cavab vermədiyi qeyd olunur. Komitənin hesabatı intizam tənbehinin tətbiq edilməsi məqsədilə Şuranın müzakirəsinə təqdim edilir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən, 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" standartının, 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartının, 501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" standartının, 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartının, 580 saylı "Rəhbərliyin məlumatları" standartının, 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" standartının və 705 saylı "Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər" standartlarının tələblərinə əməl edilsin.

Auditor rəyləri yeni formatda tərtib edilsin və Maliyyə hesabatının tərkib hissəsi olan dörd forma: "Müəssisə balansı", "Mənfəət və zərərlər haqqında hesabat", "Kapitalda dəyişiklər haqqında hesabat" və "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və Uçot Siyasəti, Şərhlər və Qeydlər bölməsi öz əksini tapsın. Hesabatlar arasında yaranan uyğunsuzluqlar aradan qaldırılsın və gələcəkdə belə hallara yol verilməsin.

Təsərrufat subyektinin təqdim etdiyi Rəhbərliyin məlumatları yalnız təqdim edən tərəfindən imzalanmalı, Auditorun imzalanması yol verilməzdir.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilsin.

"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə tam əməl edilsin, göstərilmiş xidmətin dəyərinin yalnız bank vasitəsi ilə həyata keçirilməsinə nail olunsun.

2018-ci il 1 yanvar tarixindən həyata keçirilən illik maliyyə hesabatlarının auditinə dair təqdim edilmiş auditor hesabatlarının (rəylərin) surətini hər bir audit üzrə iş başa çatdıqdan

sonra 1 (bir) həftə müddətində Auditorlar Palatasının Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinin elektron ünvanına (hesabat@audit.gov.az) təqdim edilsin.

Auditorlar Palatasına üzvlük haqqı üzrə borcun təcili olaraq ödənilməsi təmin edilsin.

Bir qayda olaraq yoxlama vaxtı lazım olan sənədlərin vaxtında Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə тəzarət üzrə komitənin müfəttişlərinə təqdim edilməsi təmin olunsun.

## Sərbəst auditor Akif Məlik oğlu Rzayev

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 audit işi (**Transservis LTD MMC, Səmayə Co. LTD MMC və Zirə PFK MMC)** yoxlamaya kağız formatda təqdim edilmişdir.

**Transservis LTD MMC-nin** 31 dekabr 2016-cı ildə başa çatan dövr üzrə maliyyə hesabatlarının tam dəsti aşağıdakılardır:

a) Mühasibat balansı;

b) Mənfəət və zərər haqqında hesabat;

c) Kapitalda dəyişikliklər haqqında hesabat;

d) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

e) Uçot siyasəti və izahlı qeydlər.

Auditor yoxlamasının nəticələri şərtsiz müsbət auditor rəyi ilə rəsmiləşdirilmişdir.

Auditor yoxlaması zamanı aşağıdakı nöqsanlar aşkar edildi.

1) Sənədlər və audit sübutları (BAS 500-599).

Audit zamanı yetərli dərəcədə audit sübutları toplanmamış və əldə edilməmişdir.

Təhriflərin baş verməməsi üçün əhəmiyyətli məlumatları özündə əks etdirən vergi hesab vərəqələri, vergi yoxlama aktları (əgər olmuşsa) və debitor–kreditor borclara dair sənədlər işçi sənədlər arasında yoxdur.

Vergi orqanına təqdim edilmiş bəyannamələrlə maliyyə hesabatları arasında az əhəmiyyətli uyğunsuzluqlar vardır.

2) Auditin sənədləşdirilməsi (BAS 230).

Audit kifayət dərəcədə sənədləşdirilməmişdir.

**Səmayə Co. LTD MMC-nin** 31 dekabr 2017-ci ildə başa çatan dövr üzrə maliyyə hesabatlarının tam dəsti aşağıdakılardır:

a) Mühasibat balansı;

b Mənfəət və zərər haqqında hesabat;

c) Kapitalda dəyişikliklər haqqında hesabat;

d) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

e) Uçot siyasəti və izahlı qeydlər.

Auditor yoxlamasının nəticələri şərtsiz müsbət auditor rəyi ilə rəsmiləşdirilmişdir.

Keyfiyyətə nəzarət yoxlaması zamanı müəyyən etdiyim nöqsanlar aşağıdakılardır:

1) Sənədlər və audit sübutları (BAS 500-599).

Audit zamanı yetərli dərəcədə audit sübutları toplanmamış və əldə edilməmişdir.

Təhriflərin baş verməməsi üçün əhəmiyyətli məlumatları özündə əks etdirən vergi hesab vərəqələri, vergi yoxlama aktları (əgər olmuşsa) və debitor –kreditor borclara dair sənədlər işçi sənədlər arasında yoxdur.

Vergi orqanına təqdim edilmiş bəyannamələrlə maliyyə hesabatları arasında uyğunsuzluqlar vardır.

2) Auditin sənədləşdirilməsi. (BAS 230)

Audit kifayət dərəcədə sənədləşdirilməmişdir.

**Zirə PFK MMC-**nin 31 dekabr 2017-ci ildə başa çatan dövr üzrə maliyyə hesabatlarının tam dəsti aşağıdakılardır:

a) Mühasibat balansı;

b) Mənfəət və zərər haqqında hesabat;

c) Kapitalda dəyişikliklər haqqında hesabat;

d) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

e) Uçot siyasəti və izahlı qeydlər.

Auditor yoxlamasının nəticələri şərtsiz müsbət auditor rəyi ilə rəsmiləşdirilmişdir.

Keyfiyyətə nəzarət yoxlaması zamanı az əhəmiyyət kəsb edən nöqsanlar aşağıdakılardır:

**Sənədlər və audit sübutları.(BAS 500-599)**

1) Mühasibat balansı, mənfəət və zərər haqqında göstərilmiş bəzi məlumatlar maliyyə hesabatlarının tam dəstinə daxil olan izahlı qeydlərdə tam açıqlanmayıb.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2017-2018-ci illər üzrə üzvlük haqqı tam ödənilmişdir, 2019-cu il üçün ödəniş olmamışdır.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən 500-599 saylı "Audit sübutu". və 230 saylı "Auditin sənədləşdirilməsi" BAS-lara diqqət artırılsın.

## Sərbəst auditor Vəli Məmməd oğlu Kərimov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 (üç) audit işi ("MediClub" MMM - 2016-cı il üzrə Maliyyə Hesabatlarının Auditi (MHA), "SKN Electrical Services" şirkətinin Azərbaycan Respublikasındakı filialı – 2017-ci il üzrə MHA və "ART-TRİO" MMC- 2018-ci il üzrə MHA) qiymətləndirmə üçün seçilmişdir. Auditor tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**1-ci ("MediClub" Məhdud Məsuliyyətli Müəssisəsi 2016-cı ilin auditi (Dövriyyə 9 758 605.46 manat, Müqavilə dəyəri - 12500,00 manat)**

Auditor tərəfindən audit BAS-na uyğun aparılmış və yekun olaraq şərti müsbət rəy verilmişdir.

Buna görə Auditor tərəfindən həmin maliyyə hesabatlarının hazırlanmamasında aşkarlanmış nöqsanlar müstəqil auditor hesabatında öz əksini taparaq BMUS-na tam riayət edilməməsi qeyd edilmişdir.

**2-ci müəssisə “SKN Electrical Services” şirkətinin Azərbaycan Respublikasındakı filialı 2017-ci ilin auditi (Dövriyyə 6699682,00 manat, Müqavilə dəyəri - 43505,00 manat)**

Auditor tərəfindən audit BAS-na uyğun aparılmış və yekun olaraq şərti müsbət rəy verilmişdir.

Maliyyə hesabatlarının hazırlanmamasında aşkarlanmış nöqsanlar müstəqil auditor hesabatında öz əksini taparaq KTMMUS-na tam riayət edilməməsi qeyd edilmişdir.

**3-cü müəssisə “ART-TRİO” Məhdud Məsuliyyətli Cəmiyyəti (Dövriyyə 1931686,17 manat, Müqavilə dəyəri - 18000,00 manat)**

Auditor tərəfindən audit BAS-na uyğun aparılmış və yekun olaraq müsbət rəy verilmişdir.

Müstəqil auditor hesabatında müsbət rəy audit standartlarına uyğun əsaslandırılmışdır.

Aparılan yoxlamanın nəticəsi aşağıdakı kimi qiymətləndirilmişdir:

**Keyfiyyətli (5)** – qiymətləndirmə “A” Auditorun fəaliyyəti auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün kifayət edir və BAS-ın və Etika Məcəlləsinin tələblərinə riayət etməyə yönəlmişdir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar qeyri-əhəmiyyətli hesab edilir və Auditorun hesabatının keyfiyyətinə təsir etmir). Keyfiyyətə nəzarətə dair hesabata yoxlama zamanı peşəkar fəaliyyətin ayrı-ayrılıqda hər bir audit işinin daha da yaxşılaşdırılmasına yönələn tövsiyyələr daxil edilir.

Yoxlanmanın nəticəsi üzrə Auditora Beynəlxalq audit standartlarının tələblərinə riayət etməyin davam etdirilməsi tövsiyə olunur.

## Sərbəst auditor Elnur Cəsayıl oğlu Rəsulzadə

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 4 audit işi (“Marine Technical Solutions” MMC, “SYNTAX” MMC, “Absheron Marina Service” MMC və “Grand Catering” MMC) yoxlamaya kağız formatda təqdim edilmişdir. Yoxlamaya yalnız yekun audit sənədləri təqdim edilmişdir. İşçi sənədlər yoxlamaya təqdim edilməmişdir.

**“Marine Technical Solutions ” MMC** üzrə:

auditor tərəfindən verilmiş 03.05.2018-ci il tarixli müstəqil auditorun hesabatında “Marine Technical Solutions ” MMC -nin 2017-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması göstərilmiş və maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlandığı əks etdirilərək müəssisənin maliyyə hesabatlarına “şərtsiz müsbət rəy” verilmişdir. Müstəqil auditorun hesabatında auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı göstərilmiş və 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” Beynəlxalq Audit Standartı tətbiq edilmişdir.

Yoxlama zamanı aşağıdakı nöqsan və uyğunsuzluqlar aşkar edilmişdir:

1) “Marine Technical Solutions” MMC tərəfindən “Maliyyə hesabatlarının təqdimatı” adlı 1№ li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının tələbləri nəzərə alınmayaraq maliyyə hesabatlarının tam toplusuna daxil olan “Əhəmiyyətli uçot siyasətləri və sair izahedici açıqlamaları daxil edən qeydlər” hazırlanmamışdır. Sərbəst auditor yoxlama zamanı qeyd olunan nöqsanın aradan qaldırılmasını müəssisənin rəhbərliyi ilə müzakirə etməli, noqsan aradan qaldırlmadığı təqdirdə auditi aparılan müəssisəyə 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” Beynəlxalq Audit Standartı deyil, 705 saylı “Müstəqil auditorun hesabatında fərqli rəylər” Beynəlxalq audit standartı tətbiq edilməli və şərtsiz müsbət rəydən fərqli rəy verilməli idi.

2) Müəssisə tərəfindən auditlə bağlı olaraq sərbəst auditora təqdim olunmuş heç bir sənəddə maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən hazırlandığı qeyd olunmadığı halda (bəzi hallarda hesabatların Milli Mühasibat Uçotu Standartlarına əsasən hazırlandığı qeydi vardır) müstəqil auditorun hesabatında hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlandığı göstərilmişdir.

3) 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartlarının tələblərinə əməl edildiyini təsdiq edən işçi sənədlər keyfiyyətə nəzarət yoxlamasına təqdim edilməmişdir.

31.12.2017-ci il tarixə maliyyə vəziyyəti haqqında hesabatda göstərilən və əhəmiyyətli hesab oluna biləcək :

-aktivlər üzrə- 865605,00 manat alıcı və sifarişçilərlə hesablaşmalar qalığı və "Kənar mənbədən təsdiqləmələr" 498256,00 manat büdcə ilə hesablaşmalar qalığı:

-passivlər üzrə- 1689050,00 manat təsisçilərlə hesablaşmalar qalığı məlumatlarının heç birinə dair işçi sənədlərin olmadığını nəzərə alaraq hesab edirəm ki, audit yoxlaması zamanı 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" BAS-ın tələblərinə əməl olunmamışdır.

**"SYNTAX " MMC** üzrə:

Sərbəst auditor tərəfindən təqdim olunmuş 04.05.2018-ci il tarixli müstəqil auditorun hesabatında "SYNTAX" MMC-nin 2017-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması göstərilmiş və maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlandığı əks etdirilərək müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Müstəqil auditorun hesabatında auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı göstərilmiş və 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı tətbiq edilmişdir.

Yoxlama zamanı aşağıdakı nöqsan və uyğunsuzluqlar aşkar edilmişdir:

1) "SYNTAX" MMC tərəfindən "Maliyyə hesabatlarının təqdimatı " adlı 1№ li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının tələbləri nəzərə alınmayaraq maliyyə hesabatlarının tam toplusuna daxil olan "Əhəmiyyətli uçot siyasətləri və sair izahedici açıqlamaları daxil edən qeydlər" hazırlanmamışdır. Sərbəst auditor yoxlama zamanı qeyd olunan noqsanın aradan qaldırılmasını müəssisənin rəhbərliyi ilə müzakirə etməli, noqsan aradan qaldırlmadığı təqdirdə auditi aparılan müəssisəyə 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı deyil , 705 saylı "Müstəqil auditorun hesabatında fərqli rəylər" Beynəlxalq audit standartı tətbiq edilməli və şərtsiz müsbət rəydən fərqli rəy verilməli idi.

2) Müəssisə tərəfindən Auditora təqdim olunmuş heç bir sənəddə maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən hazırlandığı qeyd olunmadığı halda (bəzi hallarda hesabatların Milli Mühasibat Uçotu Standartlarına əsasən hazırlandığı qeydi vardır.) müstəqil auditorun hesabatında hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlandığı göstərilmişdir.

3) 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartlarının tələblərinə əməl edildiyini təsdiq edən işçi sənədlər keyfiyyətə nəzarət yoxlamasına təqdim edilməmişdir.

31.12.2017-ci il tarixə maliyyə vəziyyəti haqqında hesabatda göstərilən və əhəmiyyətli hesab oluna biləcək :

-aktivlər üzrə- 299233,00 manat büdcə ilə hesablaşmalar qalığı :

-passivlər üzrə - 321350,00 manat təsisçilərlə hesablaşmalar qalığı məlumatlarının heç birinə dair işçi sənədlərin olmadığını nəzərə alaraq hesab edirəm ki, audit yoxlaması zamanı 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" BAS-ın tələblərinə əməl olunmamışdır.

**"Absheron Marina Service " MMC** üzrə:

Auditor tərəfindən təqdim olunmuş 18.07.2018-ci il tarixli müstəqil auditorun hesabatında "Absheron Marina Service" MMC-nin 2017-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması göstərilmiş və maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlandığı əks etdirilərək müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Müstəqil auditorun hesabatında auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı göstərilmiş və 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı tətbiq edilmişdir.

Yoxlama zamanı aşağıdakı nöqsan və uyğunsuzluqlar aşkar edildi:

1) "Absheron Marina Service" MMC tərəfindən "Maliyyə hesabatlarının təqdimatı" adlı 1№ li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının tələbləri nəzərə alınmayaraq maliyyə hesabatlarının tam toplusuna daxil olan "Əhəmiyyətli uçot siyasətləri və sair izahedici açıqlamaları daxil edən qeydlər" hazırlanmamışdır. Auditor yoxlama zamanı qeyd olunan noqsanın aradan qaldırılmasını müəssisənin rəhbərliyi ilə müzakirə etməli, noqsan aradan qaldırlmadığı təqdirdə auditi aparılan müəssisəyə 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı deyil, 705 saylı "Müstəqil auditorun hesabatında fərqli rəylər" Beynəlxalq audit standartı tətbiq edilməli və şərtsiz müsbət rəydən fərqli rəy verilməli idi.

2) Müəssisə tərəfindən Auditora təqdim olunmuş heç bir sənəddə maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən hazırlandığı qeyd olunmadığı halda (bəzi hallarda hesabatların Milli Mühasibat Uçotu Standartlarına əsasən hazırlandığı qeydi vardır) müstəqil auditorun hesabatında hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlandığı göstərilmişdir.

3) 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartlarının tələblərinə əməl edildiyini təsdiq edən işçi sənədlər keyfiyyətə nəzarət yoxlamasına təqdim edilməmişdir.

31.12.2017-ci il tarixə maliyyə vəziyyəti haqqında hesabatda göstərilən və əhəmiyyətli hesab oluna biləcək sosial sığorta və təminat üzrə öhdəliklər maddəsində göstərilən 322440,00 manat qalığa dair açıqlamaların və işçi sənədlərin olmadığını nəzərə alaraq hesab edirəm ki, audit yoxlaması zamanı 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" BAS-ın tələblərinə əməl olunmamışdır.

**"Grand Catering " MMC** üzrə:

Auditor tərəfindən təqdim olunmuş 25.05.2018-ci il tarixli müstəqil auditorun hesabatında "Grand Catering" MMC-nin 2017-ci il üzrə maliyyə hesabatlarının auditinin aparılması göstərilmiş və maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlandığı əks etdirilərək müəssisənin maliyyə hesabatlarına "şərtsiz müsbət rəy" verilmişdir. Müstəqil auditorun hesabatında auditin Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparıldığı göstərilmiş və 700 saylı "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" Beynəlxalq Audit Standartı tətbiq edilmişdir.

Yoxlama zamanı aşağıdakı nöqsan və uyğunsuzluqlar aşkar edildi:

1) “Grand Catering” MMC tərəfindən “Maliyyə hesabatlarının təqdimatı ” adlı 1№ li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının tələbləri nəzərə alınmayaraq maliyyə hesabatlarının tam toplusuna daxil olan “Əhəmiyyətli uçot siyasətləri və sair izahedici açıqlamaları daxil edən qeydlər” hazırlanmamışdır. Sərbəst auditor yoxlama zamanı qeyd olunan noqsanın aradan qaldırılmasını müəssisənin rəhbərliyi ilə müzakirə etməli , noqsan aradan qaldırlmadığı təqdirdə auditi aparılan müəssisəyə 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” Beynəlxalq Audit Standartı deyil , 705 saylı “Müstəqil auditorun hesabatında fərqli rəylər” Beynəlxalq audit standartı tətbiq edilməli və şərtsiz müsbət rəydən fərqli rəy verilməli idi.

2) Müəssisə tərəfindən Auditora təqdim olunmuş heç bir sənəddə maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən hazırlandığı qeyd olunmadığı halda (bəzi hallarda hesabatların Milli Mühasibat Uçotu Standartlarına əsasən hazırlandığı qeydi vardır.) müstəqil auditorun hesabatında hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlandığı göstərilmişdir.

3) 500 saylı “Audit sübutu” və 505 saylı “Kənar mənbədən təsdiqləmələr” standartlarının tələblərinə əməl edildiyini təsdiq edən işçi sənədlər keyfiyyətə nəzarət yoxlamasına təqdim edilməmişdir.

31.12.2017-ci il tarixə maliyyə vəziyyəti haqqında hesabatda göstərilən və əhəmiyyətli hesab oluna biləcək :

-aktivlər üzrə- 1300102,00 manat alıcı və sifarişçilərlə hesablaşmalar qalığı -passivlər üzrə - 217326,00 manat vergi öhdəlikləri qalığı, 947427,00 manat malsatan və podratçılara kreditor borclar qalığı, 254058,00 manat təsisçilərlə hesablaşmalar qalığı məlumatlarının heç birinə dair işçi sənədlərin olmadığını nəzərə alaraq hesab edirəm ki, audit yoxlaması zamanı 500 saylı “Audit sübutu” və 505 saylı “Kənar mənbədən təsdiqləmələr” standartlarının tələblərinə əməl olunmamışdır.

Ümumiyyətlə Auditor 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması" BAS-ın və audit üçün mühüm olan bütün digər BAS-ların tələblərini yerinə yetirməyənə qədər auditor rəyində BAS-lara riayət etdiyini təsdiqləməməli idi.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2016-2017-ci illər üzrə üzvlük haqqı tam ödənilmişdir, 2018-ci il üçün 58,0 manat borc qalmış, 2019-cu il üçün 33,00 manat hesablanmış, lakin ödəniş olmamışdır.

Auditor Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz fəaliyyətini "Xalq Sıgorta" ASC-də 19.07.2018-ci ii tarixinədək sığortalamışdır. Həmin dövrdən sonra Auditorun mülki məsuliyyəti sıgortalanmamışdır.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə “C” aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir.

Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" standartlarının tələblərinə əməl edilsin.

Auditorlar Palatasına üzvlük haqqı üzrə 91,00 manat borcun təcili olaraq ödənilməsi təmin edilsin.

## Sərbəst auditor Qulu Mehbalı oğlu Soltanov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 5 audit işi ("Beynəlxalq AVRASİYA MƏTBUAT FONDU", **"**LOTTO YAYIM" MMC, "Məişət Malları" ASC, "RAM BNT LTD" MMM və "ABBAS KREDİT İTTİFAQI" MMC) qiymətləndirmə üçün seçilmişdir. Auditor tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**- "Beynəlxalq AVRASİYA MƏTBUAT FONDU"-nun auditi üzrə** 31 dekabr 2018-ci il MHA dair 24 aprel 2019-cü il tarixdə rəy verilmişdir.

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

3-**cü** səhv: Hesabatda Şərhlər və Qeydlər bölməsində hesabat dövründən sonra baş vermiş hadisələr öz əksini tapmamışdır.

**-"LOTTO YAYIM"MMC** 31 dekabr 2018-ci il MHA -01 mart 2018-ci il tarixdə rəy verilib

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın Audit planı bölməsində Audit riskini mümkün qədər aşağı səviyyəyədək azaltmaq üçün auditor audit planını hazırlamalıdır. Lakin buna əməl edilməmişdir.

3-cü səhv – Hesabat dövründən sonra baş vermiş hadisələr bölməsi yoxdur

-"**Məişət Malları"ASC** 31 dekabr 2016-cı il MHA -08 fevral 2017-ci il tarixdə rəy verilib

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

3-cü səhv – Hesabat dövründən sonra baş vermiş hadisələr bölməsi yoxdur

**-"RAM BNT LTD"MMM** 31 dekabr 2016-cıil MHA -13 fevral 2017-ci il tarixdə rəy verilib

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

3-cü səhv – Hesabat dövründən sonra baş vermiş hadisələr bölməsi yoxdur

**-"ABBAS KREDİT İTTİFAQI"MMC** 31 dekabr 2018-ci il MHA -26 yanvar 2019-cu il tarixdə rəy verilib

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

3-cü səhv – Hesabat dövründən sonra baş vermiş hadisələr bölməsi yoxdur.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2017-2018-ci illər üzrə üzvlük haqqı tam ödənilmişdir, 2019-cu il üçün ödəniş olmamışdır.

Auditor tərəfindən Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə” qərarına tam əməl edilməmişdir. Belə ki, Gəncə avtomobil zavodunun illik dövriyyəsi 175,5 milyon manat olduğu halda bağlanmış müqavilənin məbləği 5000,00 manat olmuşdur, "Azritservis LTD" MMC-nin illik dövriyyəsi 8,1 milyon manat olduğu halda bağlanmış müqavilənin məbləği 4000,00 manat olmuşdur, "Dərnəgöl boru zavodu" ASC-nin dövriyyəsi 1,5 milyon manat olduğu halda bağlanmış müqavilənin məbləği 3000,00 manat olmuşdur və sairə.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə “C” aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" və 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" standartlarına.

Maliyyə hesabatının tərkib hissəsi olan Uçot Siyasəti, Şərhlər və Qeydlər bölməsində Hesabat dövründən sonra baş vermiş hadisələr öz əksini tapsın.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə” qərarına tam əməl edilsin.

## Sərbəst auditor Vüsal Məmmədrəsul oğlu Qarayev

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 audit işi (“Standart Lizinng” MMC, “AYGÜN” ASC və ”İsmayıllı-Tikinti-27” ASC) qiymətləndirmə üçün seçilmişdir Auditor tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**- “ Standart Lizing”MMC**-nin **auditi üzrə:**

31 dekabr 2018-ci il MHA dair 24 aprel 2019-cü il tarixdə rəy verilmişdir,

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: Təqdim edilmiş auditor rəyi köhnə formatda verilmişdir

**-“AYGÜN ”ASC üzrə:**

**31** dekabr 2016-cı il MHA dair 25 iyul 2017-ci il tarixdə rəy verilmişdir,

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit planı bölməsində Audit riskini mümkün qədər aşağı səviyyəyədək azaltmaq üçün auditor audit planını hazırlamalıdır, lakin buna əməl edilməmişdir.

3-cü səhv: Təqdim edilmiş auditor rəyi köhnə formatda verilmişdir.

**-"İsmayıllı-Tikinti "ASC** üzrə:

31 dekabr 2017-ci ilin MHA dair 04 iyun 2018-ci il tarixdə rəy verilmişdir.

1-ci səhv: 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmişdir, Məktub-öhdəlik tərtib edilməmişdir.

2-ci səhv: 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** BAS-ın tələblərinə əməl edilməmişdir, Audit plan-proqramı tərtib edilməmişdir.

3-cü səhv: 04 iyun 2018-ci il tarixdə verilmiş rəy köhnə formatda verilmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin. Bununla əlaqədar olaraq 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" və 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** standartlarının tələblərinə diqqət artırılsın.

Təsərrufat subyektlərinə auditor rəyləri yeni formatda təqdim edilsin.

## Sərbəst auditor Ülfət Miryusif oğlu Məmmədov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 audit işi **("METAL ETM" MMC, "Dərnəgül Boru Zavodu" QSC və "Bərdə Ticarət" ASC)** yoxlamaya təqdim edilmişdir. Təqdim olunmuş audit sənədlərindən məlum olur ki, aparılmış auditlər əsasən Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olmuşdur.

Bununla belə qeyd etmək lazımdır ki, 500 saylı "Audit subutu" Beynəlxalq Audit Standartının 2-ci maddəsinə əsasən auditor rəyinin əsaslandığı yetərli əminliyi təmin edən nəticələrin əldə edilməsi üçün auditor müvafiq əhəmiyyətə malik audit sübutu əldə etməlidir. Lakin Auditor tərəfindən tələb olunan qaydada audit sübutları toplanmamışdır.

501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" Beynəlxalq Audit Standartının A1-ci ~~4-cü~~ maddəsinə əsasən rəhbərlik, adətən, maliyyə hesabatlarının hazırlanmasının əsası kimi və müvafiq hallarda müəssisənin ehtiyatlarının inventarizasiya uçotu sisteminin ehtibarlılığına əmin olmaq üçün ildə bir dəfə mövcud mal-material ehtiyatlarının fiziki hesablanmasının aparılması ilə bağlı prosedurlar müəyyən edir. Lakin təsərrufat subyektlərinin inventarizasiya aparılması barədə məlumat Maliyyə Hesabatlarının ayrılmaz tərkib hissəsi olan Əhəmiyyətli Ucot Siyasəti, Şərhlər və Qeydlərdə öz əksini tapmamışdır.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilərək 2018-ci il üzrə üzvlük haqqı tam ödənilmişdir, 2019-cu il üçün üzvlük haqqına görə 1000,0 manat borcu qalmışdır.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə "B" Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin, o cümlədən 500 saylı "Audit subutu" və 501 saylı "Audit sübutu-seçilmiş maddələr üzrə xüsusi mülahizələr" Beynəlxalq Audit Standartının tələblərinə diqqət artırılsın.

Üzvlük haqqı üzrə borcun Auditorlar Palatasına ödənilməsi təcili olaraq təmin edilsin.

Bundan başqa 2019-cu ilin 9 ayı üzrə 3 auditor təşkilatının və 2 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğu plandankənar yoxlanılmışdır.

## "Zaman Audit" MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 3 audit işi **("AKT KO LTD" MMC, "AZCONSTRUCTİON" QSC və "GATE BAKU RS" MMC)** qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**"AKT KO LTD" MMC**-nin auditinə dair Şərti müsbət rəy verilmişdir.

Audit sübutları yetərli olmamışdır, təsisçşilərin payları barədə əvvəlki məlumat verilsə də dəyişiklikdən sonra məlumatlar əksini tapmamışdır. Təqdim edilmiş Auditor Rəyi köhnə formatda tərtib olunmuşdur. Bununla da 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" və 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartlarının tələbləri nəzərə alınmamışdır.

**"AZCONSTRUCTİON" QSC**-yə 2018-ci il üzrə 14.02.2019-cu il tarixdə Auditor tərəfindən rəy verilmişdir. Maliyyə hesabatları, Maliyyə hesabatlarının Beynəlxalq standartlarına uyğun hazırlanmaması, Uçot siyasətinin şərhi, izahlı qeydlər verilməmiş, hesabatların qeydlər bölməsində məlumatlar təsbit olunmamışdır. Auditor isə natamam maliyyə hesabatına müsbət rəy vermişdir. Bununla yanaşı verilmiş auditor rəyi yeni qəbul edilmiş standarta (BAS) uyğun deyil. Beləliklə 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" və 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartlarının tələbləri nəzərə alınmamışdır.

**"GATE BAKU RS" MMC** –nin 2018-ci il maliyyə hesabatı

Maliyyə hesabatında İzahlı qeydlər və uçot siyasətinin şərhi bölməsi olmadığı üçün Balans, Mənfəət və zərərlər, kapitalda dəyişiklik, pul vəsaitlərinin hərəkəti hesabatlarının

qeydlər hissəsində məlumatlar əks olunmamışdır. Hesabata müsbət rəy verilmişdir. Auditor tərəfindən verilmiş rəy sonuncu standarta uyğun deyil. Auditor tərəfindən 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri  və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" və 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartlarının tələbləri nəzərə alınmamışdır.

Cəmiyyət  tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, 2018-ci ilin üzvlük haqqı tam olaraq ödənilmiş, 2019-cu ilin üzvlük haqqından 2793,00 manat borc qalmışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət  2018-ci il üzrə auditor yoxlamasını keçirməmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada  təşkil edilməmişdir. Qaydalara əsasən keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. Yoxlama gününədək hec bir auditin nəticələri müzakirə edilməmiş və keyfiyyəti qiymətləndirilməmişdir. BAS-nın "Keyfiyyətə daxili nəzarət" adlı 1 saylı standarta riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət  səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

1. Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin. Bununla əlaqədar olaraq 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri  və auditin beynəlxalq audit standartlarına uyğun aparılması", 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması**"** və  700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartlarının tələblərinə əməl edilsin.

2. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın  2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

3. Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilsin;

4. Üzvlük haqqı üzrə borcun Auditorlar Palatasına ödənilməsi təmin edilsin.

## “M.A. Audit” MMC

Müqavilə öhdəliyi üzrə Cəmiyyət tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 2 audit işi (**“AzGerneft” MMC** və **“Bakı ağ şəhər ofis binası” MMC**) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

1**-ci müəssisə “AzGerneft” MMC – 2018-ci ilin auditi** (Auditor Mehriban Rüstəmli)

Auditor təşkilatı tərəfindən “AzGerneft” MMC **-** nin 31 dekabr 2018-ci ilin maliyyə hesabatlarına 20.05.2019-cu il tarixdə “müsbət rəy” verilmişdir. Maliyyə hesabatlarının dəsti ingilis dilində hazırlanıb təqdim edilmişdir. Auditor təşkilatı tərəfindən aparılan audit BAS-ın tələblərinə uyğun aparılmışdır.

**2-ci müəssisə “Bakı ağ şəhər ofis binası” MMC – 2018-ci ilin auditi** (Auditor Mehriban Rüstəmli)

Auditor təşkilatı tərəfindən “Bakı ağ şəhər ofis binası” MMC - nin 31 dekabr 2018-ci ilin maliyyə hesabatlarına 31.05.2019-cu il tarixdə “müsbət rəy” verilmişdir. Maliyyə hesabatlarının dəsti ingilis dilində hazırlanıb təqdim edilmişdir. Auditor təşkilatı tərəfindən aparılan audit BAS-ın tələblərinə uyğun aparılmışdır.

Cəmiyyət tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmişdir, 2018-ci ilin üzvlük haqqı tam olaraq ödənilmiş, 2019-cu ilin üzvlük haqqından 4000,00 manat borc qalmışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət 2018-ci il üzrə auditor yoxlamasını keçirməmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a uyğun olaraq Cəmiyyət tərəfindən auditlərin keyfiyyətinə daxili nəzarət lazımi qaydada təşkil edilməmişdir. Qaydalara əsasən keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilməmişdir. Yoxlama gününədək hec bir auditin nəticələri müzakirə edilməmiş və keyfiyyəti qiymətləndirilməmişdir. BAS-nın “Keyfiyyətə daxili nəzarət” adlı 1 saylı standarta riayət edilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə “B” Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

1. Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması davam etdirilsin.

2. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin

keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"-ın 2.18.4 bəndinə uyğun olaraq keyfiyyətə daxili nəzarət üzrə şirkətdaxili sənədlər (qaydalar, daxili standartlar, təlimatlar, iş sənədlərin forması və sairə) tərtib edilsin.

3. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2011-ci il 30 iyun tarixli 221/5 saylı qərarına əsasən hər ilin fəaliyyətinin audit yoxlanılması həyata keçirilsin və Auditor rəyinin surəti Palataya təqdim edilsin.

4. Auditorlar Palatası Şurasının 2004-cü il 28 dekabr tarixli 143/1 saylı "Auditor xidməti bazarında haqsız rəqabət hallarının aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər barədə" təsdiq edilmiş qərarından irəli gələn tələblərə riayət edilsin. Bir gün ərzində hər bir auditor tərəfindən birdən artıq auditor rəyinin verilməsinə son qoyulsun.

5. Üzvlük haqqı üzrə borcun Auditorlar Palatasına ödənilməsi təmin edilsin.

## "Prime Audit and Consulting" MMC

Müqavilə öhdəliyi üzrə auditor təşkilatı tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 2 audit işi ("FORMAG-BAKU" MMC və "BTL İNDUSTRİES AZ" MMC) qiymətləndirmə üçün seçilmişdir. Cəmiyyət tərəfindən keçirilmiş auditlər əsasən Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olmuşdur. Bununla belə 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS-in tələblərinə əməl edilməmiş, məktub-öhdəlik tərtib edilməmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4 maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətlərin illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak menafeləri ilə Cəmiyyətə (auditor təşkilatına) və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir. Bununla əlaqədar olaraq Cəmiyyət 2018-ci ilin auditor yoxlamasının keçirilməsi məqsədi ilə sərbəst auditor Elnur İbrahimovla müqavilə bağlamış, lakin audit xidməti göstərilməmişdir.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qənaətbəxş (4)** – qiymətləndirmə "B" Auditor Təşkilatı bəzi nöqsanlar istisna olmaqla BAS-lara və Etika Məcəlləsinə əməl edir (bu qiymətləndirmədə aşkar olunmuş nöqsan və çatışmazlıqlar əsasən qeyri-əhəmiyyətli və az əhəmiyyətli hesab edilir və auditorun hesabatının keyfiyyətinə əhəmiyyətli təsir etmir).

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin. Bununla əlaqədar olaraq 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" standartının tələblərinə diqqət artırılsın.

## Sərbəst auditor Musa Sərxan oğlu Sadıqov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 2 audit işi (Şəmkir rayon Q. İsmayılov bələdiyyəsi və Şəmkir rayonu İrmaşlı Bələdiyyəsi) qiymətləndirmə üçün seçilmişdir. Auditor tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

**Şəmkir rayonu Q. İsmayılov Bələdiyyəsi:**

Şəmkir rayon Q. İsmayılov bələdiyyəsinin 2018-ci il (maliyyə ili üçün ) maliyyə hesabatının auditinə dair Auditor tərəfindən bələdiyyənin maliyyə vəziyyəti barədə müvafiq standart çərçivəsində hesabatı tam olmadan müsbət rəy verilmişdir.

Auditorun hesabatı (rəyi) BAS yeni standartına uyğun deyildir.

Aşağıdakı BAS-lar xüsusi olaraq nəzərə alınmamışdır: 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması", 250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" və 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı"

**Şəmkir rayonu İrmaşlı Bələdiyyəsi:**

Auditor tərəfindən BAS 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" tərkib hissəsinə aid Müqavilənin qeyri-müəyyənliyi aşkar olunmuşdur, Bələdiyyələr tərəfindən maliyyə hesabatının əhalinin diqqətinə təqdim edilməsi qəbul olan qaydada hazırlanmamışdır.

Maliyyə hesabatının qüsurları və çatışmazlıqları, habelə maliyyə əməliyyatları ilə bağlı Auditorun təklif və tövsiyyələri İki tərəfli AKT-da əks olunmuşdur. MUS tərəfindən təqdim olunmuş hesabatların və mühasibat uçotunun müvafiq təlimatlara və qaydalara uyğun aparılmadığı qeyd olunsa da müsbət rəy verilmişdir.

Auditorun Hesabatı (Rəyi) BAS-nın hazırkı tələbinə uyğun deyil. Beləliklə rəy düzgün formalaşdırılmamış, rəy üçün əsaslar audit sübutları çərçivəsində təmin edilməmişdir. BAS 500 "Audit sübutu" və 700 "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" standartlarının tələbləri nəzərə alınmamışdır.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə tam riayət edilməmişdir, belə ki, 2017-2018-ci illərin üzvlük haqqı ödənilməmişdir, 1140,00 manat borc qalmışdır. 2019-cu il üçün ödəniş olmamışdır.

Auditor Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz fəaliyyətini sığortalamamışdır.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə "C" aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin. Bununla əlaqədar olaraq : 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması", 250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması", 500 saylı "Audit sübutu" və 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı" BAS-ların tələblərinə sözsüz əməl edilsin.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli "Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının

Qanununa uyğun olaraq Cəmiyyət son dövrdə öz fəaliyyətini sığortalatdırsın və Şəhadətnaməni surətinin Palataya təqdim etsin.

Auditorlar Palatasına olan üzvlük haqqı üzrə borcun ödənilməsi təmin edilsin.

## Sərbəst auditor Şirxan Yadigar oğlu Gülməmmədov

Müqavilə öhdəliyi üzrə Auditor tərəfindən yerinə yetirilmiş ayrı-ayrılıqda seçmə qaydada 2 audit işi  Şabran rayon "Aygünlü" Bələdiyyəsi və Xaçmaz rayon Uzunoba Bələdiyyəsi) qiymətləndirmə üçün seçilmişdir. Auditor  tərəfindən keçirilmiş auditlər aşağıdakı kimi qiymətləndirilmişdir:

Şabran rayon "Aygünlü" Bələdiyyəsinin 2018-ci il maıliyyə hesabatının auditi  barədə:

Auditor tərəfindən aparılmış yoxlamanın predmeti olan maliyyə hesabatına sənədlərdə rast gəlinmədi. Maliyyə vəziyyəti barədə məlumatlar yalnız Auditor tərəfindən tərtib olunmuş və özünün möhürü ilə təsdiq edilmiş AKT-da əks olunmuşdur. Əgər maliyyə hesabatı yoxdursa həmin AKT maliyyə hesabatına rəy vermək üçün sənəd sayıla bilməz.

AKT-da 510 saylı BAS "İlk audit - ilkin qalıqlar" uyğun olaraq ilk qalıqlar barədə məlumatlar əks olunur. Lakin həmin qalıqlar barədə məlumatların təhrif olub-olunmaması  haqqında yetərli audit sübutları əldə edilməlidir. Bunun üçün 510 saylı BAS "İlk audit - ilkin qalıqlar" 6 –cı hissəsinin a) , b) və c) bəndinin (i),(ii) ,(iii) əlavələrində nəzərdə tutulmuş (ilkin qalıqların müvafiq uçot siyasətlərinin tətbiq olunmasını əks etdirilməsini müəyyən etməli, açıqlamar da daxil olmaqla əvvəlki maliyyə hesabatı, habelə əgər varsa auditor hesabatı ilə tanış olmalıdır) . Aktivlər və öhdəliklərin (əvvəlki dövrün sonuna və maliyyə ilinin əvvəlinə) vəziyyəti barədə məlumatları təsdiq edən audit sübutlarına dair  təqdim edilmiş sənədlərdə yalnız Bələdiyyə tərəfindən təsdiq olunmuş arayışlar vardır. Auditor tərəfindən Maliyyə hesabatlarına dair kafi nəticələr çıxarmaq üçün audit sübutlarının əldə edilb-edilməməsinin dəyərləndirilməsi baxımından 200 saylı BAS "Müstəqil auditorun ümumi məqsədləri və auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması" tələblərinə əməl edilməməsi təsəvvürünü yaradır.

Xaçmaz rayon "Uzunoba" Bələdiyyəsi üzrə: 01.01.2015 tarixdən 01.11.2018-ci il tarixədək maliyyə hesabatlarının düzgünlüyünün auditi üzrə nəticələr aşağıdakı kimidir: Təqdim edilmiş sənədlərdə Milli və Beynəlxalq standartlara uyğun maliyyə hesabatına rast gəlinmədi. Bələdiyyənin maliyyə vəziyyəti barədə məlumatlar yalnız arayışlar və xəzinə məxaric və mədaxil əməliyyatlarının qeydləri şəklində verilmişdir.

Auditin nəticəsi AKT formasında auditorun hesabatı ilə rəsmiləşdirilmiş, BAS-na uyğun Rəy (hesabat) tərtib edilməmişdir. Bu da 700 saylı BAS "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" tələbinin, habelə BAS 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması" tələbinin pozulması kimi qiymətləndirilə bilər.

Auditor tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 21 aprel 1998-ci il tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş «Auditorlar Palatasının üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə» Təlimata edilmiş əlavə və dəyişikliklərlə əlaqədar Təlimatın tələblərinə riayət edilmiş, 2018-ci ilin üzvlük haqqı tam ödənilmiş, lakin 2019-cu il üçün 962,00 manat borc qalmışdır.

Auditor Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz fəaliyyətini sığortalamamışdır.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə” qərarına tam əməl edilməmişdir. Belə ki, bəzi hallarda bağlanmış müqavilənin məbləği 300,00 – 800,00 manat olmuşdur.

Aparılan yoxlamanın nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar aşağıdakı kimi qiymətləndirilmişdir:

**Qismən Qənaətbəxş (3**) – qiymətləndirmə “C” aşkar edilmiş nöqsanlarla əlaqədar olaraq Auditor auditin müvafiq keyfiyyət səviyyəsini təmin etmək üçün ciddi islahatlar keçirməlidir. Aşkar edilmiş nöqsanlar BAS-lara və Etika Məcəlləsinə tam əməl olunmadığını deməyə əsas verir.

**Verilmiş təkliflər:**

Maliyyə Hesabatlarının Auditi tam olaraq Beynəlxalq Audit Standartlarına uyğun aparılması təmin edilsin. Bununla əlaqədar olaraq 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması", 510 saylı "İlk audit - ilkin qalıqlar" və 700 saylı “Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı” BAS-ların tələblərinə sözsüz əməl edilsin.

Maliyyə hesabatının tərkib hissəsi olan dörd forma: "Müəssisə balansı", "Mənfəət və zərərlər haqqında hesabat", "Kapitalda dəyişiklər haqqında hesabat" və "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və Uçot Siyasəti, Şərhlər və Qeydlər bölməsi öz əksini tapsın.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Auditor hər il öz fəaliyyətini sığortalatdırsın və Şəhadətnamənin surətini Palataya təqdim etsin.

Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan, minimum hədləri barədə" qərarına tam əməl edilsin.

Auditorlar Palatasına üzvlük haqqı üzrə borcun ödənilməsi təmin edilsin.

**Keyfiyyətə nəzarət üzrə**

**komitənin sədri** **Vəli Kərimov**